**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**DÜRDANƏ TALIB QIZI ƏSGƏROVA**

# ANA DİLİ DƏRSLƏRİNDƏ BƏDİİ MATERİALLARIN MƏNİMSƏDİLMƏSİNİN VASİTƏ VƏ YOLLARI

5801.01-Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(Azərbaycan dilinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

## A V T O R E F E R A T I

**Bakı – 2015**

Dissertasiya Azərbaycan Müəllimlər İnstitutunun İbtidai və məktəbəqədər təhsilin metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Vaqif Tapdıq oğlu Qurbanov**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

**Rəsmi opponentlər**: **Əzizxan Vəli oğlu Tanrıverdiyev**
*filologiya üzrə elmlər doktoru,*
*professor*

**Çimnaz Həsənəli qızı Məmmədova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Sumqayıt Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası

Müdafiə "_12___" 01_ 2016-ci ildə saat ____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"__________ 2015-cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanda iqtisadi, siyasi, elmi-mədəni sahədə aparılan köklü islahatlar təhsil fəlsəfəsinin dəyişməsi ilə nəticələnmişdir. Respublikamızda yaddaş məktəbindən təfəkkür məktəbinə keçmək prioritet bir istiqamət hesab olunur. "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda (2009), "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (Kurikulumlar)"nda (2010), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda (2013) şəxsiyyətin inkişaf etdirilməsi, cəmiyyətin ehtiyac və tələbatlarına uyğun keyfiyyətlər əsasında formalaşdırılması vacib hesab edilmişdir.

Strategiyada "ölkənin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata, səmərəli əmək fəaliyyətinə hazırlamaq"[1] təhsil sisteminin başlıca vəzifələri hesab edilmişdir. Bu sənədlər ümumi təhsilin zəruri parametrlərini əhatə etməklə mühüm əhəmiyyət kəsb edir. Təsdiq edilən təhsil proqramlarında hər bir fənn üzrə məzmun, texnologiyalar və şagirdlərin qiymətləndirmə mexanizmləri əhatəli şəkildə verilir. Hər bir fənnin məzmunu nəticələr şəklində təqdim edilir. İbtidai siniflər üçün Azərbaycan dili fənni üzrə təlim nəticələri aşağıdakı kimi verilir:

- danışanın fikrinə münasibət bildirir, öz fikrini sərbəst və ardıcıl ifadə edir;
- düzgün, səriştəli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;
- kiçikhəcmli rabitəli mətnlər qurur;
- lüğətlərdən, məlumat kitablarından istifadə edir;

[1] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013, № 5, s.12

- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir;

- yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir[1].

Bu təlim nəticələrinin reallaşdırılmasında ana dili (Azərbaycan dili) dərsləri mühüm əhəmiyyət kəsb edir. İbtidai sinfin Azərbaycan dili dərsliklərində bədii və elmi - kütləvi mətnlərin mənimsənilməsi prosesində yuxarıda sadalanan nəticələri reallaşdırmaq mümkündür. Tədqiqat zamanı yalnız bədii materialların mənimsənilməsi prosesinin spesifik xüsusiyyətləri tədqiqata cəlb olunmuşdur. Əsaslandırılmışdır ki, hər bir bədii janrın öz quruluşu, üslubu olduğundan onların şagirdlərə təsiri də fərqli olur. Müxtəlif növ bədii əsərlərin oxusunu düzgün təşkil etmək üçün onların xüsusiyyətlərini bilmək, müvafiq metod və priyomlardan istifadə etmək vacibdir. İbtidai sinif dərsliklərində mühüm yer tutan hekayənin, nağılın, şeirin, təmsilin oxunuşu eyni ola bulməz. Hekayədə hadisə müəyyən xətt üzrə inkişaf edir, şagirdlər canlı dillə təsvir olunan hadisələri asanlıqla yadda saxlayırlar. Nağıllar quruluşuna görə hekayələrə yaxın olsa da, nağılda kompozisiya, personaj, fabula, ideya, üstəlik həyata uyğun gəlməyən fantastik hadisələr, əşyalar (bircə anda şəhərin salınması, adamın yox olması, uçan xalça, danışan quş və s.) vardır. Şagirdlərin hafizələrini möhkəmləndirmək, nitqlərini inkişaf etdirmək, dünyagörüşünü genişləndirmək, estetik zövqünü tərbiyə etmək baxımından şeirlər müstəsna rola malikdir. Yaxşı şeir uşağın mənəvi aləmini zənginləşdirir, onda doğma dilin gözəlliklərinə həssaslıq tərbiyə edir. Təmsil uşaqları daha çox maraqlandıran janrdır. Onun əsasında alleqoriya durur. Təmsil müəllifi heyvan, quş, cücü, bitki və başqa əşyaların obrazlar vasitəsilə insanların tipik xasiyyətlərinə (yalançılıq, oğurluq, ədalətsizlik, lovğalıq, acgözlük, qorxaqlıq və s.) gülür, öyüd-nəsihət verir.

İbtidai təhsil pilləsi çox məsuliyyətli bir pillədir. O pillələrlə savad, bilik, bacarıq dünyasına qanadlananlar dahi Nizaminin Fitnəsini xatırladırlar. Bilik, bacarıq, vərdiş üçlüyü arasındakı ötürücü əlaqələrlə işləyən sinif müəllimi həm də inteqrativ düşüncə sahibi kimi fəaliyyət göstərir, humanitar qayəli belə insanlarda mifoloji təsəvvürləri planetar düşüncəyə çevirmək qabiliyyətinin əsası qoyulur. Təbiət, dil, ədəbiyyat, musiqi duyumu elementləri ilə yüklənən, , çevik metodlarla işləyən sinif

[1] Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012, s.6

müəllimi bal arısını xatırladır. Sinif müəlliminin Azərbaycan dili dərslərində, romantik xəyallara qol-qanad vermək təcrübəsinin öyrənilməsi müasir insan yetişdirməyin forma və üsullarını aşkarlamaq deməkdir. Müasir insanın bədii zövq, bədii təfəkkürə və emosional, cazibədar nitqə sahib olması üçün ibtidai təhsil çox möhkəm baza, özül və ya əsaslara çevrilə bilər. Yeni kurikulum təhsilinin tələbləri,o cümlədən ümumi təhsilin fənn standartları (I -XI siniflər) həmin tələblər əsasında yazılan dərsliklər və xüsusi treninqlər keçmiş müəllimlərin təcrübəsi buna inanmağa əsas verir[1].

Oxu materialları ibtidai siniflərdə Azərbaycan dilindən təlim materiallarının əsasını təşkil edir. Bu materiallar özünün təhsilvericiliyi və tərbiyəediciliyi ilə seçilir. Bu ciddi psixoloji və pedaqoji mərhələ əslində nəinki ibtidai, orta təhsilin bütün paramertlərlə özülü və ya əsasıdır. Oxu materialı xüsusi konsepsiya ilə hazırlanır. Onun məzmununa şifahi ədəbiyyatın nümunələri, bayram və tarixi günlərlə bağlı materiallar, mənəvi dəyərlərin inkişaf etdirilməsinə xidmət edən kiçikhəcmli hekayələr, şeirlər, klassik və müasir, o cümlədən dünya ədəbiyyatından nümunələr daxil edilir .

I-IV siniflər üzrə "Azərbaycan dili" dərsliklərində oxu materialları müxtəlif üslublara görə tərtib olunmuşdur. Belə materialların içərisində 295-300 mövzunun bədii üslubda olması şagirdlərin əxlaqi-mənəvi tərbiyəsinə, onların şəxsiyyət kimi formalaşmasına kömək edir. Bədii oxu materiallarının məzmunu üzərində aparılan işlər vasitəsi ilə şagirdlərdə yüksək əxlaqi keyfiyyətlər, zəruri həyati dəyərlər formalaşır. Bədii mətnlər şagirdlərdə vətənin şanlı keçmişi ilə bağlı təsəvvür formalaşdırır, onlara tarixi qəhrəmanları tanıdır, vətənpərvərlik, xeyirxahlıq, cəsurluq, sədaqətli olmaq kimi insani keyfiyyətlərlər formalaşdırır.

Elmi həqiqət naminə onu deyək ki, həm sovet hakimiyyəti illərində, həm də müstəqillik illərində nəşr olunan ibtidai sinif dərsliklərində şagirdlərin bədii zövq, emosional düşüncə və nitqinin formalaşdırılması məqsədi ilə kifayət qədər bədii əsərlərdən parçalar verilmişdir.

2008-ci ilə kimi "Azərbaycan dili" adlanan dərsliklər dil qaydalarından, "Oxu" dərslikləri isə ədəbi-bədii, publisistik və s. üslublar üzrə mətnlərdən ibarət olmuşdur. Həmin ildən başlayaraq oxu materialları da dil materialları kimi "Azərbaycan dili" dərsliklərində yer tutur. Bununla belə, oxu materialları öz məzmun və strukturu baxımından heç bir diffuziyaya uğramamış, əksinə, dərsliklərə yazılan metodik göstərişlərlə

---

[1] Abbasov Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // Kurikulum islahatı: tədqiqatlar, nəticələr, Bakı: Mütərcim, 2008, №1

oxu təlimi haqqında təsəvvürlər həm nəzəri və həm də metodik cəhətdən xeyli genişləndirilmişdir.

Bədii üslubda olan oxu materiallarının da təlim məqsədlləri və məzmun standartları xeyli dəqiqləşdirilmişdir. Belə bir didaktik statusun yaradılmasında metodist alimlərimizin əməyini və rolunu qeyd etməyə bilmərik. Metodist alimlərimizdən prof.Y.Ş.Kərimov, prof.A.N.Rəhimov, prof.M.Həsənov, dos.N.Cəfərova, dos.E.Y.Kərimova, dos.H.Abdullayeva, dos.A.Hacıyev, dos.B.İbadova bu sahədə xeyli iş görmüşlər. Prof.Y.Ş.Kərimovun "İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası" (2013) və prof.A.N.Rəhimovun "Ana dilinin tədrisi metodikası" (2003) adlı dərsliklərində ifadəli oxu təlimində bədii mətnlər üzərində işlər, təhlillər və s. kimi məsələlərin şərhinə çox geniş yer verilmişdir.

Dərslik və dərs vəsaitlərində ibtidai siniflərdə Azərbaycan dilinin tədrisinin qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- şagirdlərdə düzgün, sürətlə, ifadəli, şüurlu oxumaq, kitablardan müstəqil istifadə etmək vərdişi aşılamaq;
- xalqımızın şifahi xalq ədəbiyyatı inciləri, yazılı ədəbiyyatın gözəl nümunələrinin köməyi ilə şagirdləri milli adət və ənənələrimizlə tanış etmək;
- şagirdlərin məntiqi təfəkkürünü, idrak fəallığını, ümumi inkişafını təmin etmək;
- şagirdlərdə Azərbaycan dilinə dərin məhəbbət, onun təmizliyinin qorunub saxlanmasına sədaqət hissi tərbiyə etmək[1].

Son illərdə ibtidai siniflərdə təlim prosesinin təşkili ilə bağlı xeyli ciddi elmi-tədqiqat işləri aparılmış, dissertasiyalar müdafiə olunmuşdur. Araşdırmalar göstərir ki, tədqiqatlarda Azərbaycan dili sahəsindəki bacarıq və vərdişlər (nitq, oxu, yazı) şagirdlərin təlim əməyinin zəruri şərti hesab olunur. Uşaqlar oxumaq bacarığına yiyələnməklə ilk növbədə dərketmənin, təhsilliliyin, əqli inkişafın açarı olan doğma dilləri öyrənirlər. Ana dilini yaxşı bilən uşaqlar yüksək ideyalı bədii ədəbiyyatımızı, elmi-kütləvi kitabları, qəzet və jurnalları oxuyub biliyini zənginləşdirir. Dilin incəliklərinə yiyələnmədən insan istehsalat, mədəniyyət və incəsənətin inkişafında fəal iştirak edə bilməz. Metodistlər Azərbaycan dili dərslərində bədii materialların şagirdlər tərəfindən yaxşı mənimsənilməsini onların şəxsiyyət kimi formalaşmasının mühüm atributu kimi dəyərləndirirlər. Təəssüf ki,

[1] Kərimov Y. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Səda, 2013, s.6

müasir islahatların tələbinə uyğun olaraq ibtidai siniflərin Azərbaycan dili dərslərində bədii materialların mənimsədilməsinin imkan və yolları sistemli şəkildə araşdırılmamış, ciddi elmi-tədqiqat əsərlərinin, dissertasiyaların predmetinə çevrilməmişdir. Bu məsələlər "Ana dili dərslərində bədii materialların mənimsədilməsinin vasitə və yolları" adlı dissertasiyamızın aktuallığını şərtləndirən amillərdən biridir.

**Tədqiqatın obyektini** ibtidai siniflərdə təlim prosesi təşkil edir.

**Tədqiqatın predmetini** ibtidai siniflərdə ana dili dərslərində bədii materialların mənimsədilməsi üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** ibtidai siniflərin Azərbaycan dili kurikulumunda, elmi-metodiki ədəbiyyatda bədii materialların mənimsənilməsi probleminin qoyuluşunu araşdırmaqdan, bədii mətnlərin tədrisində istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanlarını üzə çıxarmaqdan, Azərbaycan dili dərslərində nəzm və nəsr əsərlərinin tədrisinin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Azərbaycan dili dərslərində bədii materiallar səmərəli mənimsədilərsə, uşaqlarda düzgün, səriştəli, şüurlu, ifadəli oxu vərdişi yaranar, oxuduğu mətnlərə və danışanın fikrinə münasibət bildirər, öz fikrini sərbəst və ardıcıl ifadə edər, kiçikhəcmli rabitəli mətnlər qurar, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edər.

**Tədqiqatın vəzifələri:**

- problemi elmi-nəzəri cəhətdən araşdırmaq;
- problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu araşdırmaq;
- bəddi əsərlərin tədrisində istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanlarını üzə çıxarmaq;
- bədii əsərlər üzrə aparılan işlərin məzmun xüsusiyyətlərini müəyyənləşdirmək;
- nəzm və nəsr əsərlərinin tədrisinin imkan və yollarını müəyyənləşdirmək;
- Azərbaycan dili dərslərində bədii materialların mənimsədilməsinin sistemini yaratmaq;
- fərziyyənin eksperiment vasitəsilə doğruluğunu təsdiq etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və prosesləri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədi ilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

Tədqiqatda aşağıdakı **metodlardan** istifadə olunmuşdur: nəzəri təhlil, müşahidə, müsahibə, pedaqoji eksperiment və riyazi-statistik metodlar.

İşçi fərziyyənin doğru və məqsədəuyğunluğunu sübuta yetirmək üçün müəyyənləşdirici, öyrədici və yoxlayıcı eksperimentlər keçirilmişdir. Eksperimentlər 2009-2013-cü illərdə Bakı şəhəri 166, 190, 23, 132, 134, 166, 182, 207 saylı orta məktəblərin qabaqcıl müəllimlərinin (Məmmədova Nərgiz, Məhərrəmova Solmaz, Əlizadə Xavər, Abdullayeva Solmaz, Məmmədova Zemfira, Kərimova Gülnar, Məmmədova Təranə və başqaları) II-IV siniflərdə qoyulmuş, habelə bu işə 300 nəfərdən çox ibtidai sinif şagirdi və 15-ə qədər müəllim cəlb olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, ibtidai siniflərin Azərbaycan dili kurikulumunda, elmi-metodiki ədəbiyyatda bədii materialların mənimsənilməsi probleminin qoyuluşu araşdırılır, bədii mətnlərin tədrisində istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanları üzə çıxarılır, Azərbaycan dili dərslərində nəzm və nəsr əsərlərinin tədrisi üzrə işin sistemi yaradılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. İbtidai siniflərdə Azərbaycan dili fənninin tədrisində bədii mətnlərin mənimsədilməsinin didaktik əsaslarının müəyyənləşdirilməsi ibtidai təhsil nəzəriyyəsini yeni müddəalarla zənginləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan əldə olunan nəticələrdən ibtidai siniflər üçün yeni kurikulumların hazırlanmasında, dərslik və dərs vəsaitlərini təkmilləşdirilməsində, ibtidai siniflərdə təlim prosesinin düzgün qurulmasında istifadə etmək olar. Alınan nəticələr təlim keyfiyyətini yüksəltmək baxımından da dəyərlidir.

Müdafiəyə təqdim olunan **müddəalar:**

- Azərbaycan dili dərslərində bədii materialların səmərəli mənimsədilməsi nəticəsində şagirdlər danışanın fikrinə münasibət bildirir, öz fikrini sərbəst və ardıcıl ifadə edir;
- Azərbaycan dili dərslərində bədii materialların səmərəli mənimsədilməsi şagirdlərdə düzgün, səriştəli, şüurlu, ifadəli oxu vərdişləri yaradır, onlar oxuduqları mətnə şüurlu münasibət bildirir, kiçikhəcmli rabitəli mətnlər qurur, lüğətlərdən, məlumat kitablarından istifadə etməyi bacarır;
- Azərbaycan dili dərslərində bədii materialların səmərəli tədrisi nəticəsində şagirdlər Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir, yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın nəticələri ilə bağlı Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlərdə 2 tezis, 8 məqalə (o

cümlədən 1-i xaricdə) nəşr olunmuşdur. Tədqiqatla bağlı doktorant respublika və beynəlxalq konfranslarda məruzələr etmiş, 1 metodik vəsait nəşr etdirmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya girişdən, 8 yarımfəsli əhatə edən 2 fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

«**Giriş**»də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, metodoloji əsası aydınlaşdırılır, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiyanın birinci fəsli **"Problemin ümumi məsələləri"** adlanır. Dörd yarımfəsli əhatə edən ilk fəslin birinci yarımfəsli ***"İbtidai siniflərin Azərbaycan dili kurikulumunda bədii əsərlərin mənimsədilməsi probleminin qoyuluşu"*** adlanır. Burada Azərbaycan dili fənn kurikulumunun mahiyyətinə aydınlıq gətirilir, onun spesifik xüsusiyyətləri müəyyənləşdirilir, mövcud fənn proqramları ilə onun fərqli cəhətləri üzə çıxarılır. Əsaslandırılır ki, ana dili kurikulumu bu fənn üzrə məqsəd və vəzifələri müəyyənləşdirən və ona doğru istiqamətlənmiş standartların reallaşması üçün zəruri fəaliyyətləri əhatə edən konseptual sənəddir. Bu sənəd hazırlanarkən cəmiyyətimizin ehtiyac və tələbatları, şagirdlərin imkanları, meyil və maraqları nəzərə alınmışdır. Azərbaycan dili kurikulumunda fənnin məqsədi və vəzifələri, əhəmiyyəti, xarakterik xüsusiyyətləri yarımfəsildə ətraflı şərh olunmuşdur. Nəticələr şəklində müəyyənləşdirilmiş məzmun standartları, bu standartların reallaşdırılmasına xidmət edən təlim strategiyası və digər tələblərin nəzərə alınmasının təlimin keyfiyyətinə təsiri üzə çıxarılmışdır. Azərbaycan dili fənninin kurikulumunun hazırlanmasında nəticəyönümlülük, inteqrativlik, şəxsiyyətyönümlülük və digər prinsiplər əsas götürülmüşdür.

Azərbaycan dili fənn kurikulumunda müəllimin əsas məqsədi belə ifadə olunmuşdur: "Ümumtəhsil məktəblərində ana dili təliminin məqsədi ümumi nitq və dil bacarıqlarını formalaşdırmaqla şagirdlərin nitq mədəniyyətinə yiyələnmələrini təmin etməkdən ibarətdir"[1]. Göründüyü kimi, burada əsas diqqət şagirdlərdə nitq mədəniyyətinin formalaşdırılmasına yönəldilmişdir.

---

[1] Kurikulumlrın hazırlanması və tətbiqi məsələləri (metodik tövsiyə). Bakı, "Kövsər" nəşriyyatı, 2008, s.131

I-IV siniflər üzrə Azərbaycan dili kurikulumunda təhsilin həcmi, strukturu, strategiyasına bütöv bir məzmun, tam bir sistem kimi baxılmışdır. Azərbaycan dili kurikulumu inteqrativ anlayışdır. Bu anlayışda təhsillə bağlı bütün komponentlər ehtiva olunmuşdur.

Kurikulum gələcəyin, müasir dünyanın işlərindən çevik düşünmək, əməli işə dərhal keçə bilməklə baş çıxaran bacarıqlı, qabiliyyətli, insanlarını yetişdirməyin proqramlaşdırılmış kursudur. Belə bir kursun ibtidai mərhələsinin təhsillə bağlı bəzi spesifik cəhətləri vardır. Kurikulum təhsili həm inteqrativ bir anlayış, həm də böyük həcmə və məzmuna malik bir metodologiyadır. Onun yeni təlim məqsədləri, təlim nəticələri, məzmun standartlarını həyata keçirə biləcək inteqrativ metodları vardır; bu mənada kurikulum-inteqrasiya strategiyasına uyğun olaraq, dünyanı tam, kainatı bütöv, təbiəti əlaqə və vəhdətdə dərk etdirməyə yönəlmiş, habelə interaktiv metodlarla elmi biliklər, bacarıq və vərdişlər tələb edən və həyata keçirən aydın bir kurs kimi təsəvvür olunmalıdır. Bütün bunlar I-IV siniflər üzrə Azərbaycan dili kurikulum sənədindən hasil edilən nəticələrdir. Həmin sənədi öyrənmədən müasir dövrdə Azərbaycan dili təlimini elmi-metodik əsaslar üzrə qurmaq kimi çox zəruri və əhəmiyyətli bir işin öhdəsindən bacarıqla gəlmək mümkün olmaz.

Azərbaycan dili kurikulumu öz sələfləri olan I-IV sinif “Azərbaycan dili” proqramları ilə müqayisəli şəkildə təhlil olunur və spesifik cəhətlər üzə çıxarılır:

1. Azərbaycan dili kurikulumu oxu materiallarının və dil qaydalarının həcmi və məzmunu haqqında təkcə aydın istiqamət verən sənəd deyil, eyni zamanda nəticəyönümlü proqnozlar verən yığcam konseptual bir sənəddir. Keçmiş proqramlarda dil qaydaları ilə oxu materialları sanki əlaqəsi olmayan ayrı-ayrı komponentlər kimi yer tutar və bir-birindən fərqli fənlər sayılar, ayrı-ayrı dərsliklərdə verilərdi.

2. Proqramda Əlifba, Azərbaycan dili, Oxu, Hüsnxət, Ana dili fənnində ehtiva olunsa da, bunların hər birinin məqsəd və vəzifələri çox vaxt səmtlərə ayrılardı və yaxud son nəticədə ana dilində inteqrasiya olunmazdı.

3. Azəzrbaycan dili kurikulumu əsasında tərtib olunan dərsliklər, onlarla işləməyə aid hazırlanan metodik vəsaitlər dil təliminin mədəni nitqə aparan funksiyasını yerinə yetirməyə hesablanmışdır və ona görə də nəticəyönümlü sayılır. Nəticəyönümlülük bilik, bacarıq və vərdişlərin gözlənilən nəticələr kimi deyil, son nəticə şəklində verilməsidir. Bu üslub, bizə görə, prinsip etibarilə daha məntiqi bir üslubdur.

4. Proqramda dil qaydaları ilə bağlı nəzəriyyəçilik elmilik kimi sə-

ciyyələndirilərdi və şagirdlərin çətin məsələlərlə qarşılaşdırılması sanki qabaqlayıcı funksiya hesab olunardı; ancaq bundan heç bir fayda əldə edilməzdi.

5. Oxu ana dilinin dinləyib-anlama və danışmadan sonra ikinci yerdə sıralanan məzmun xətti sayılır. Oxu məzmun xətti olmasa, yazı və dil qaydaları baş tutmaz. Oxu şagirdlərin dil duyumunun inkişafını, fikrin ifadə olunmasında sözün məna xüsusiyyətlərinin, cümlə və mətndə rolunun anlaşılmasını, eyni zamanda şagirdlərdə lazımi vərdişlərin məqsədyönlü şəkildə təkmilləşdirilməsini, dilin gözəlliyinə, üslubi imkanlarının zənginliyinə maraq və məhəbbətin yaradılmasını təmin edir. Bu məzmun xətti müxtəlif üslublarda yazılmış mətnlərin məzmun və struktur elementlərinin müstəqil qavranılmasına imkan yaradır və ədəbi-bədii nümunələrə marağı dərinləşdirməyə, ümumi nitq mədəniyyətinin inkişafı üçün obrazlı ifadələrdən ibarət lüğət ehtiyatını daha da zənginləşdirməyə xidmət edir.

***"Bədii mövzuların tədrisi tarixi və müasirlik"*** adlı ikinci yarımfəsildə bədii mətnlərin tədrisi tarixi araşdırılır və müasir dövrlə müqayisə edilir. Əsaslandırılır ki, bədii materialların mənimsədilməsi bədii qiraət üçün yeganə didaktik imkan sayıla bilməz. Fonetikanın öyrədilməsi oxu zamanı sözlərin düzgün tələffüz edilməsi vərdişlərinin inkişafı üzərində işləməyə imkan açır. Cümlələrdə intonasiya və vurğu haqqında məlumat şagirdlərdə ifadəli oxu vərdişlərinin inkişafını təmin edir. Məsləhət bilinir ki, sintaksisi keçərkən müəllim durğu işarələrinin öyrədilməsini fasilə və intonasiya üzərində müşahidə ilə əlaqələndirməli, şagirdlərin diqqətini intonasiya və durğu işarələrinin biri-birinə uyğun gəlib-gəlməməsi faktlarına cəlb etməli, cümlələri ifadəli oxumağı öyrətməlidir. Şagirdlərin məzmunsuz və solğun nitqinə qarşı mübarizə aparmaq ana dili müəlliminin əsas vəzifəsi olmalıdır. Çalışmaq lazımdır ki, qrammatika dərsi eyni zamanda nitq mədəniyyəti dərsi olsun. Bunun üçün şagirdlərin nitqini inkişaf etdirmək məqsədi ilə qrammatika dərslərini ədəbi oxu dərsləri ilə əlaqələndirmək vacibdir. Çünki ifadəli oxu çox hallarda cümlənin quruluşca təhlilini tələb edir[1].

Yarımfəsildə XX əsrin 30-50-ci illərində nəşr olunan ana dili proqramları müqayisəli şəkildə təhlil olunur, onların bir-birindən əsaslı

---

[1] Abdullayeva M.M. İbtidai siniflərdə sintaksis elementlərinin öyrədilməsi prosesində ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsi yolları. Namizədlik dissertasiyası, Bakı, 2013, 141 s.

şəkildə fərqlənmədiyi vurğulanır. Göstərilir ki, 1961-ci ildən başlayaraq təlimin məzmununda müəyyən dərəcədə dəyişikliklər edildi. İfadəli oxu vərdişlərinin inkişafına əvvəlki proqramlara nisbətən daha geniş yer verildi. Bu proqramlarda şagirdlərə qrammatikanın əsaslarını mənimsətmək, düzgün və ifadəli oxumaq, orfoqrafiya və durğu işarələrinə aid möhkəm vərdişlər qazandırmaq vəzifələri qoyuldu. Nitq vərdişlərinin inkişafı ilə əlaqədar xüsusi tapşırıqlar verildi. Qrammatik materialların hər bir bölməsində tələffüz, ifadəli oxu və nitq inkişafı ilə əlaqədar olaraq keçilmiş qaydaların nitqdə tətbiq edilməsinə aid tələblər müəyyənləşdirildi. 60-cı illərdə tərtib edilən proqramın məzmunu demək olar ki, 70-80-ci illərdə əsasən saxlanıldı. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilin məzmununda, o cümlədən Azərbaycan dilinin tədrisinin məzmununda ciddi dəyişikliklər aparıldı. İdeoloji istiqamətin təbliğinə həsr olunmuş mətnlər tamamilə çıxarıldı. Ümumtəhsil məktəblərinin qarşısına yeni məqsədlər qoyuldu, bu məqsədə uyğun olaraq məzmun müəyyənləşdirildi. 2006-cı ildə Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) təsdiq edildi. 2007-2008-ci tədris ilindən başlayaraq ibtidai məktəbdə "kurikulum islahatı" adı altında məzmunca yeniləşdirilmiş təlimin tətbiqinə başlanıldı. Yarımfəsildə bu məsələlər ətraflı şəkildə izah edilmişdir. Əsaslandırılmışdır ki, Azərbaycan dili dərslərində bədii mətnlərin tədrisində müxtəlif məqsədləri (sərbəst oxu, qiraət vərdişləri, nitq vərdişləri, ifadəli nitq, bədii nitq və təfəkkürün inkişafı) həyata keçirmək mümkündür.

Bu yarımfəsildə müasir mətnlərlə yanaşı, zaman-zaman ana dili dərsliklərimizdə istifadə edilən bədii mətnlər də təhlil və tədqiq olunur. Firudin bəy Köçərlinin "Ana dili millətin mənəvi diriliyidir" fikrinin ibtidai siniflərdə şagirdlərə aşılanmasının zəruriliyi vurğulanır.

***"Problemin dərsliklərdə və metodik ədəbiyytda qoyuluşu"*** adlanan üçüncü yarımfəsildə ana dili dərslərində bədii materialların mənimsədilməsi ilə bağlı imkanlar araşdırılmışdır. Əsaslandırılmışdır ki, müasir dövrdə nəşr olunan Azərbaycan dili dərslikləri bədii mətnlərlə daha zəngindir, həmin mətnlərdən istifadə etməklə şagirdlərdə zəruri keyfiyyətləri formalaşdırmaq mümkündür. Yarımfəsildə o da vurğulanır ki, indiki dərsliklərdə verilən mətnlərin heç də hamısı müasir dövrdə yaranan mətnlər deyil, xalqımızın min illər boyu yaratdığı atalar sözləri, nağıllar, əfsanələr, dastanlardan nümunələrdir. Klassik Azərbaycan şairlərinin müasir dövrlə səsləşən əsərləridir.

***"Bədii əsəsrlərin tədrisində istifadə edilən interaktiv təlim metodlarının didaktik imkanları"*** adlı dördüncü yarımfəsildə əsaslandırılır

ki, bədii əsərləri yeni metodlarla mənimsətməyin arsenalı olduqca zəngindir. Bu arsenala təhsillə bağlı filmlər, kliplər, slaydlar interaktiv lövhələr  daxildir. Yeni təlim ilk növbədə təsəvvürlərdə canlanan informasiya-kommunikasiya texnologiyası ilə təşkil edilən təlimdir ki, həmin dərslər də fəal təlimə istinadən həyata keçirilir Yeni texnologiyalar dedikdə,  ilk növbədə interaktiv metodların tətbiqi və həyata keçirilməsində əyani və ya texniki vasitələr nəzərdə tutulur.

Yarımfəsildə Azərbaycan dili dərslərində istifadə edilən BİBÖ, Şaxələndirmə (klaster), Venn diaqramı, Söz assosiasiyası, Diskussiya, Çarpaz müzakirə (debat), Anlayışın çıxarılması,Rollu oyunlar, Esse, Ziqzaq, Karusel, Dəyirmi masa, İnsert metodları haqqında geniş məlumat verilir.  Nümunə üçün “Venn” diaqramını və diskussiyanı  təqdim edək. “Venn” diaqramı nisbətən üst-üstə düşən iki və ya daha artıq çevrə üzərində qurulur. Bu təsvirdən ümumi və ya fərqli cəhətləri olan iki aspektin, obrazların, mövzunun, fikrin, ideyanın müqayisəsi zamanı istifadə edilir. Çevrələrin üst-üstə düşdüyü hissədə yazmaq üçün kifayət qədər yer olmalıdır. Həmin yerdə ideyaların ümumi cəhətləri qeyd olunur. Sol və sağ tərəfdəki dairənin hissələrində isə yalnız onlara xas olan xarakterik cəhətlər yazılır.

Bakı şəhəri “Tərəqqi” liseyinin müəllimi Ağacanova Xumara Xanlar qızının “Şah İsmayıl” və “Əmir Teymur” mövzularının tədrisində yaratdığı Venn diaqramı şagirdlərin bədii anlamlar  ifadə edən sözləri sayca inkişaf etdirmək baxımından gözəl nümunələr kimi diqqəti cəlb etməyə bilməz. Xüsusən də, xalq arasında “qılınc o qılıncdır, qol o qol deyil” deyiminin geniş yayılması bədii ümumiləşdirmə vasitəsidir və bu ifadənin şagirdlərin anlamında dərin iz salması bu metodla qurulan dərsin həm gözlənilən və həm də son nəticəsinə ən yaxşı nümunə sayıla bilər.

Venn diaqramina diqqət yetirək:



Müqayisə nəticəsində şagirdlər ümumiləşdirmə aparır, nəticələr çıxarır və beləliklə, onların bilikləri aktuallaşmış olur.

Bu metoddan yeni materialın təqdimatı zamanı motivasiyada, tədqiqat mərhələsində, nəticələrin çıxarılması və tətbiqində istifadə edilir.

Azərbaycan dili dərslərində geniş istifadə edilən təlim metodlarından biri də "diskussiya"dır. Disskusiyada məqsəd iştirakçıların müzakirə olunan məsələyə dair öz fikirlərini başqalarına çatdırmaq, onları təsdiq etməyə çalışmaq, faktları təhlil etmək, problemin həlli yollarını təklif etməkdir.

"Diskussiya" latın sözü olub "hər hansı mübahisəli məsələnin azad, açıq müzakirəsi" deməkdir. Adından da göründüyü kimi diskussiya daha çox problem məsələ ətrafında müzakirə aparmaqdır. Dərsdə müəllim sinif qarşısında diskussiya üçün problem qoyur və şagirdləri müzakirəyə cəlb edir. Hər şagird müəyyən mülahizələrə, faktlara əsaslanaraq fıkrini sübut etməyə çalışır. Bunun üçün o, əvvəllər əldə etdyi bilik və bacarıqlara, əlavə ədəbiyyatdan öyrəndiklərinə və s. əsaslanır. Bu zaman şagirdlər tez-tez "mənə elə gəlir ki", "əvvəlki dərslərdən öyrəndiyimə əsasən", "filan ədəbiyyatdan oxumuşam ki", "mən başqa cür fikirləşirəm", "məncə həmin dövrə görə" və s. xarakterli ara söz və işarələrdən istifadə edirlər.

Diskussiya şagirdlərdə qarşılıqlı ünsiyyətə yardım göstərir, müəllim-şagird münasibətini yaxşılaşdırır, sinifdə demokratik mühit yaradır, dialoq aparma bacarığını təcrübədən keçirməyə imkan verir.

Bu zaman diskussiyada iştirakçılar bir-birini dinləməyi, ardıcıllıqla danışmağı, başqalarının fıkirlərinə hörmətlə yanaşmağı öyrənirlər.

Bədii təhlillər üzrə diskussiyalar həm böyük qrupda, həm də kiçik qruplarda aparıla bilər. Diskussiya zamanı şagirdlərə kifayət qədər vaxt verilməlidir ki, öz cavabları haqqında düşünsünlər.

Müşahidələr göstərir ki, bu günün şagirdi diskussiya formalı təlim prosesinə daha çox maraq göstərir, müzakirəyə girişməkdən, mövqeyini açıqlamaqdan çəkinmir.

Diskussiya şagirdlərdə müstəqil fıkir söyləmək bacarığı formalaşdırmaqla yanaşı, onlarda müsahibini dinləmə və növbə ilə danışmaq mədəniyyəti yaradır.

Diskussiyada hər şagird müəyyən mülahizələrlə fıkrini sübut etməyi bacarır. Bədii mətnlərin əsasında diskussiya şagirdlərə qismən məlum olan anlayışlar ətrafında qurulur. Müəllim hər mövzunu diskussiyaya gətirməməli, onun mübahisə yaratma xüsusiyyətlərini hökmən nəzərə almalıdır. Məsələn, aşağıdakı mövzular diskussiya üçün müəyyən əsas verir:

I sinifdə "İtlə insan necə dost oldular", "Ayı və kəndli", "Nənənin

eynəyi" və s.

II sinifdə "Şir və siçan", "Ağa və nökər", "İki dost", "Zarafat", "Yalançı çoban", "Məstanın dostluğu" və s.

III sinifdə "Qılınc həmin qılıncdır", "Əmir Teymur", "Zeynalabdın Tağıyev", "Bahalı xalça", "Makedoniyalı İsgəndər" və s.

IV sinifdə "Zəmzəm suyu", "Qaraca qız və Ağca xanım", "Lalə və Məryəm", "Ən böyük xəzinə", "Hədiyyə", "Gülgəz" və s.

Bu əsərlərin məzmununda cavabı birmənalı qəbul olunmayan elə cəhətlər var ki, onu bədii dilin gücü ilə, diskussiya yolu ilə açıqlamaq yeganə düzgün metod sayılır.

Bundan başqa bütün mövzunu yox, mövzu ilə bağlı bu və ya digər məsələni, anlayışı da diskussiyaya cəlb etmək olar. Ədəbi-bədii obrazların, oxşar anlayışların, biri-biri ilə dolaşıq salınan məsələlərin öyrənilməsində dialoq-diskussiya yaxşı nəticə verir.

**"İbtidai siniflərin Azərbaycan dili dərslərində bədii mətnlərin mənimsədilməsinin vasitə və yolları"** adlanan ikinci fəsil dörd yarımfəsli əhatə edir. Birinci yarımfəsil ***"Bədii əsərlər üzrə aparılan işlərin məzmun xüsusiyyətlərinin nəzərə alınması prinsipləri"*** adlanır. Bu yarımfəsildə bədii əsərlərin mənimsədilməsi zamanı zəruri olan prinsiplər araşdırılır. Əsaslandırılır ki, nəzm və nəsr əsərlərinin mənimsədilməsində fərqli xüsusiyyətlər təlim prosesində nəzərə alınmalıdır. Yarımfəsildə ibtidai siniflərdə bədii obraz üzərində aparılacaq işin mərhələləri aşağıdakı kimi təqdim olunur: bədii əsəri oxumağı və başa düşməyi öyrətmək, əsərdə təsvir olunan həyati faktların, hadisələrin, personajların hərəkətlərinin dərindən, hərtərəfli qavranması yolu ilə uşaqlarda əxlaqi-estetik tərbiyəni təmin etmək, gözəlliyə həssaslıq və diqqət tərbiyə etmək; yenidən yaratma təxəyyülünü, əsərdə nədən bəhs olunduğunu "görmək" bacarığını inkişaf etdirmək; oxunmuş əsərdə qəhrəmanların hərəkətlərinə öz münasibətini bildirmək qabiliyyəti aşılamaq; bədii əsərləri estetik şəkildə qavramaq bacarığını inkişaf etdirmək. Burada bədii əsərlərlə işin spesifik xüsusiyyətləri araşdırılmaqla yanaşı, ibtidai siniflərdə ifadəli oxu üçün xüsusi mətnlərin seçilməsi, bədii materiallar üzərində iş zamanı məzmun və formanın vəhdətdə öyrədilməsi xüsusi vurğulanır.

Bədii əsərlərin oxusunun praktikada geniş yayılmış aşağıdakı mərhələləri şərh edilir:

1. Giriş müsahibəsi.
2. Əsərin bütöv, ifadəli oxunması.
3. Əsərin hissə-hissə oxunub təhlil edilməsi.

4. Əsərin planı üzrə iş.
5. Mətnin təkrar oxunması.
6. Əsərin məzmununun ifadəli nəql olunması.
8. Ümumiləşdirici müsahibə.

Bədii əsərlər janr etibarilə müxtəlif olduğundan, hər bir ədəbi janrın öz quruluşu, üslubi priyomları olduğu kimi, şagirdlərə təsiri də fərqlidir. Dissertasiyada nümunələr əsasında bu fərqlilik izah edilir. Məsələn, nağılların tədrisi prosesinə diqqət yetirək. Nağıllardakı fikirlərin əyləncəli şəkildə çox incə kompozisiya, parlaq obrazlarla verilməsi uşaqların təxəyyülünü inkişaf etdirir. Nağıllarda hadisələrin dramatikliyi, personajların canlılığı uşaqları xarici aləmi obrazlı görməyə alışdırır, onların yaradıcı marağını inkişaf etdirir. Nağılların sadə, aydın, obrazlı ifadələrlə zəngin dili şagirdlərin nitqini inkişaf etdirir, onları xalqımızın ruhu, soykökü ilə ünsiyyətə girməyə, tükənməz söz xəzinəsinə, mədəni sərvətimizə yiyələnməyə doğru aparır.

Dissertasiyada nağıllar oxunarkən aşağıdakıların nəzərə alınması məsləhət görülür:

1. Nağıllar üzərində iş real hadisələrin təsvir olunduğu hekayələrlə iş kimi aparılmalıdır. Nağıllarda insanların arzu və istəklərinin öz əksini əfsanə, fantastika şəklində tapması, yaxud da heyvanların, quşların insanla danışa bilməsi, divin, əjdahanın uydurma olması haqqında şagirdlərə heç bir söz deyilməmişdir. Bu, uşaqların marağını azalda, nağılın təsir qüvvəsini aşağı sala bilər. Onsuz da uşaqların özləri divin olmasına, zümrüd və ya simurq quşunun danışmasına inanmır, lakin xarici aləmi obrazlı görmək uşaq təxəyyülünə xas olduğundan onlara sevinc gətirir, arzulamağı öyrədir.

Müəllim şagirdlərə başa salmalıdır ki, nağıllarda yaradılmış bir çox əfsanələr indi həqiqətə çevrilmişdir. Məgər televizor sehrli güzgü, təyyarə və raket uçan xalça deyilmi?

2. Nağılların insan xarakteri və qarşılıqlı münasibət sahəsindəki mənəvi təsirini açmağa ehtiyac yoxdur. Nağılların didaktik təsiri o qədər güclü və aydındır ki, şagirdlərin özləri nəticə çıxara bilirlər.

3. Xalq nağıllarının xarakterik cəhəti elədir ki, onlar nəql etmək üçün yaranmışdır. Nağılların həm kompozisiyası, həm də dili nəql etmək üçün nəzərdə tutulduğundan, mümkün qədər mətnə yaxın şəkildə nəql edilir. Müəllim tərəfindən ifadəli nəqletmə bəzən dərsin əvvəlində gedir. Aktyorun ifasında nəql edilmiş mətnin fonoxrestomatiyası şagirdlərə güclü təsir göstərir. Seriya şəkillər üzrə nəqletmə, nağıla sözlərlə şəkil çəkmə, rollar üzrə nəqletmə məzmunun yaxşı mənimsənilməsini təmin etməklə

yanaşı, şagirdlərin nitqini və yaradıcı qabiliyyətini də inkişaf etdirir.

4. Planın tərtib edilməsi də nəqletmənin gedişindən asılı olur. Əgər şagirdlər mətnin şəkilli planını tuturlarsa, bu, o qədər də çətinlik törətmir.

5. Bəzən nağıllardakı personajlar (zümrüd quşu, div, əjdaha, uçan at və s.) haqqında şagirdlərin təsəvvürlərini canlandırmaq üçün müvafiq müqəvva, maska, model və s. göstərmək, gördükləri canlılarla müqayisə etdirmək lazım gəlir.

Nağılın oxunmasına həsr olunmuş dərsin sxemi aşağıdakı kimi təqdim olunur:

1) ev tapşırığının yoxlanması;

2) giriş müsahibəsi: şagirdləri nağıldakı fantastikanı başa düşməyə, onu bütövlükdə qavramağa hazırlamalıdır;

3) müəllimin fantaziya ilə əlaqədar düşündürücü sualı (uçan xalça ola bilərmi? Dovşan canavara qalib gələ bilərmi?), fikir mübadiləsi;

4) nağılın bütöv oxunması (müəllimin obrazlı nəqletməsi də ola bilər);

5) nağılın şagirdlər tərəfindən hissə-hissə oxunması və nəql edilməsi;

6) nağıldakı obrazlı ifadələrin açılıb izah olunması, sinonimlərin seçilməsi, çoxmənalılıq üzrə leksik iş;

7) şagirdlərin nağılı danışmağa hazırlaşmaları məqsədilə səssiz oxumaları və fikrən planın tərtibi (hissələrə başlıq verilməsi);

8) nağılın təkrarən oxunması (bu zaman oxunun şüurluluğunu təmin etmək üçün müəllim müəyyən tapşırıq verir. Məsələn, "Fikir verin, Soluq bəyin Tıq-tıq xanıma münasibəti necə dəyişir?");

9) yekun vurulması (nağıl nə üçün xoşunuza gəldi?)

10) evə tapşırıq (elə oxumağı öyrənin ki, evdə eşidənlər də düşünsünlər, bir şey öyrənsinlər, təəccüblənsinlər, gülsünlər).

Yarımfəsildə hekayələrin, təmsillərin oxunması üzərində işin xüsusiyyətləri də təhlil edilmişdir.

***"Nəzm əsərlərinin tədrisinin imkan, vasitə və yolları"*** adlanan ikinci yarımfəsildə ibtidai siniflərin "Azərbaycan dili" dərsliklərində verilən nəzm əsərləri didaktik baxımdan təhlil olunur, hər bir sinif üzrə qruplaşdırılır. Əsaslandırılır ki, I-IV siniflərin "Azərbaycan dili" dərsliklərində şagirdlərdə xoş ovqat, bədii hiss, duyğu, romantik təsəvvür, təxəyyül, şeirə, sözə sonsuz həvəs, maraq oyadan bədii parçalar da az deyil və hazırda müəllimlər mövzu ilə bağlı anoloji mənbələrdən istifadə etməklə də şagirdlərin estetik tərbiyəsini formalaşdırırlar. Yarımfəsildə bədii əsərlərin tədrisi ilə bağlı ümumtəhsil məktəblərində qazanılmış təcrübə ümumiləşdirilir, kurikulumun tələblərinə uyğun yeni təlim texnoligiyası ilə

dərsin planlaşdırılması və keçirilməsi ardıcıllığı verilir.

***"Nəsr əsərlərinin optimal tədrisinin imkan, vasitə və yolları"*** adlanan üçüncü yarımfəsildə ibtidai siniflərin "Azərbaycan dili" dərsliklərində verilən nəsr əsərləri didaktik baxımdan təhlil olunur, hər bir sinif üzrə qruplaşdırılır və maraqlı dərs nümunələri verilir.

***"Bədii materialların tədrisi üzrə pedaqoji eksperimentlərin keçirilməsi"*** adlanan son yarımfəsildə fərziyyənin eksperiment vasitəsilə təsdiqi reallaşdırılır. Eksperiment üç mərhələdə həyata keçirilmişdir. Müəyyənedici eksperiment kontrol və eksperiment siniflərdə ilkin vəziyyəti öyrənmək üçün tətbiq edilmişdir. Yaradıcı-dəyişdirici eksperiment zamanı öyrənilən problemin həllinin nəzəri əsasları müəyyənləşdirilmiş, konkret metodiki yollar işlənib hazırlanmışdır. Eksperimentin son mərhələsində alınan nəticələr və hazırlanan metodika digər məktəblərin də təcrübəsində tətbiq edilmişdir. Eksperiment zamanı alınan nəticələrin düzgünlüyü və doğruluğu təsdiq olunmuşdur.

Eksperimentə Bakı şəhəri 120, 126, 238, 40 saylı məktəblərin ibtidai sinifləri və "Avropa" liseyinin II sinfi cəlb olunmuşdur.

Oxunun tələb olunan kriteriyaları, yəni mətnin səslə oxunması, fasiləyə düzgün əməl olunması, vurğunun düzgün gözlənilməsi və orfoepiyaya əməl edilməsi ilə bağlı nəticələr aşağıdakı cədvəllərdə ümumiləşdirilmişdir.

**Oxu kriteriyalarının nəticələri (eksperimentdən əvvəl)**

Cədvəl 1.

| № | Məktəb | Şagird sayı | | Səhv oxuyanlar | Faizlə % | Düzgün oxuyanlar | Faizlə % |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bakı, 120 saylı | k. | 120 | 75 | 62,5% | 45 | 37,5% |
| | | e. | 122 | 65 | 53,3% | 57 | 46,7% |
| 2. | Bakı, 238 saylı | k. | 118 | 78 | 66% | 40 | 34% |
| | | e. | 120 | 70 | 58,3% | 50 | 41,7% |
| 3. | Bakı, 126 saylı | k. | 119 | 80 | 67,2% | 39 | 32,8% |
| | | e. | 120 | 70 | 58,3% | 50 | 41,7% |
| 4. | Bakı, 240 saylı | k. | 121 | 82 | 67,8% | 39 | 32,2% |
| | | e. | 119 | 71 | 59,7% | 48 | 40,3% |
| 5. | Avropa liseyi | k. | 123 | 80 | 65% | 43 | 35% |
| | | e. | 119 | 70 | 58,8% | 49 | 41,2% |

Cədvəldən göründüyü kimi, 1201 şagirddən 741 nəfəri, yəni 61,7% ilkin mərhələdə mətni səhv oxumuşdur. Bunun əsas səbəbi əyani vəsaitlərdən, "intonasiya şərti-işarələri"ndən istifadə edilməməsi ilə əlaqədar olmuşdur.

**Oxu kriteriyalarının nəticələri (eksperimentdən sonra)**

Cədvəl 2.

| № | Məktəb | Şagird sayı | | Səhv oxu-yanlar | Faizlə % | Düz-gün oxu-yanlar | Faizlə % |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bakı, 120 saylı | k. | 120 | 65 | 54,2% | 55 | 45,8% |
| | | e. | 122 | 40 | 32,7% | 82 | 67,2% |
| 2. | Bakı, 238 saylı | k. | 118 | 68 | 57,6% | 50 | 42,4% |
| | | e. | 120 | 48 | 40% | 72 | 60% |
| 3. | Bakı, 126 saylı | k. | 119 | 72 | 60,5% | 47 | 39,5% |
| | | e. | 120 | 47 | 39,2% | 73 | 60,8% |
| 4. | Bakı, 240 saylı | k. | 121 | 73 | 60,3% | 48 | 39,7% |
| | | e. | 119 | 53 | 44,5% | 66 | 55,5% |
| 5. | Avropa liseyi | k. | 123 | 71 | 57,7% | 52 | 42,3% |
| | | e. | 119 | 49 | 41,2% | 70 | 58,8% |

Cədvəldən də göründüyü kimi eksperiment apardığımız siniflərdə oxunun nəticələri xeyli yüksək olmuşdur. Belə ki, 120 saylı məktəbdə eksperimentdən əvvəl düzgün oxuyanların sayı kontrol siniflərdə 37,5%, eksperimental siniflərdə 46, 7% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 45,8% və 67,2% olmuşdur. Kontrol siniflərdə artım 8,3 % olduğu halda, eksperimantal siniflərdə 20,5% olmuşdur. 238 saylı məktəbdə eksperimentdən əvvəl düzgün oxuyanların sayı kontrol siniflərdə 34%, eksperimental siniflərdə 41,7% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 42,4% və 60% olmuşdur. Kontrol siniflərdə artım 8,4 % olduğu halda, eksperimental siniflərdə 18,3% olmuşdur. 126 saylı məktəbdə eksperimentdən əvvəl düzgün oxuyanların sayı kontrol siniflərdə 32,8%, eksperimental siniflərdə 41,7% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 39,5% və 60,8% olmuşdur. Kontrol siniflərdə artım 6,7 % olduğu halda, eksperimental siniflərdə 19,1% olmuşdur. 240 saylı məktəbdə eksperimentdən əvvəl düzgün oxuyanların sayı kontrol siniflərdə 32,2%, eksperimental siniflərdə 40,3% olmuşdursa, eksperimentin sonunda bu

rəqəmlər müvafiq olaraq 39,7% və 55,5% olmuşdur. Kontrol siniflərdə artım 7,5 % olduğu halda, eksperimental siniflərdə 15,2% olmuşdur. Avropa liseyində eksperimentdən əvvəl düzgün oxuyanların sayı kontrol siniflərdə 35%, eksperimental siniflərdə 41,2% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 42,3% və 58,8% olmuşdur. Kontrol siniflərdə artım 7,3 % olduğu halda, eksperimental siniflərdə 17,6 % olmuşdur.

Bakı şəhəri 49, 182, 240, Biləsuvar rayonu 1 və 2 saylı məktəblərin III siniflərində şagirdlərin mətnlərdəki sözlərin mənalarını açmaqla bağlı bacarıqlarının səviyyəsi yoxlanılıb müqayisə olunmuş və nəticələri aşağıdakı cədvəldə ümumiləşdirilmişdir.

**Şagirdlərin mətndəki sözlərin mənasını açmaqla bağlı bacarıqlarının səviyyəsi (eksperimentdən əvvəl)**

**Cədvəl 3.**

| № | Məktəb | Şagird sayı | | Səhv oxu-yanlar | Faizlə % | Düzgün oxuyan -lar | Faizlə % |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bakı, 49 saylı | k. | 55 | 30 | 54,5 | 25 | 45,5 |
| | | e. | 46 | 25 | 54,3 | 21 | 45,7 |
| 2. | Bakı, 240 saylı | k. | 70 | 45 | 64,2 | 25 | 35,8 |
| | | e. | 60 | 44 | 73,3 | 16 | 26,4 |
| 3. | Bakı, 182say. | k. | 78 | 48 | 61,5 | 30 | 38,5 |
| | | e. | 64 | 46 | 71,9 | 18 | 28,1 |
| 4. | Biləsuvar, 1 saylı | k. | 63 | 43 | 68,2 | 20 | 31,8 |
| | | e. | 72 | 42 | 58,3 | 30 | 41,7 |
| 5. | Biləsuvar, 2 saylı | k. | 80 | 50 | 62,5 | 30 | 37,5 |
| | | e. | 70 | 49 | 70 | 21 | 30 |

Cədvəldən göründüyü kimi, 658 şagirddən 236 nəfəri, yəni 35,9% mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkirlər.

**Şagirdlərin mətndəki sözlərin mənasını açmaqla bağlı bacarıqlarının səviyyəsi (eksperimentdən sonra)**

**Cədvəl 4.**

| № | Məktəb | Şagird sayı | | Səhv oxu-yanlar | Faizlə % | Düzgün oxuyan-lar | Faizlə % |
|---|---|---|---|---|---|---|---|
| 1. | Bakı, 49 saylı | k. | 55 | 27 | 49 | 28 | 51 |
| | | e. | 46 | 13 | 28,2 | 33 | 71,8 |
| 2. | Bakı, 240 saylı | k. | 70 | 43 | 61,4 | 27 | 38,6 |
| | | e. | 60 | 30 | 50 | 30 | 50 |
| 3. | Bakı, 182say. | k. | 78 | 44 | 56,4 | 34 | 43,6 |
| | | e. | 64 | 35 | 54,7 | 29 | 45,3 |
| 4. | Biləsuvar, 1 saylı | k. | 63 | 40 | 63,5 | 23 | 36,5 |
| | | e. | 72 | 30 | 41,7 | 42 | 58,3 |
| 5. | Biləsuvar, 2 saylı | k. | 80 | 47 | 58,8 | 33 | 41,2 |
| | | e. | 70 | 31 | 44,3 | 39 | 55,7 |

Cədvəldən də göründüyü kimi eksperiment apardığımız siniflərdə şagirdlərin böyük əksəriyyəti bədii mətnlərdəki sözlərin mənasını açmaqda çətinlik çəkməmişlər. Belə ki, eksperimentdən əvvəl 49 saylı məktəbdə mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkən şagirdlərin sayı kontrol siniflərdə 45,5%, eksperimental siniflərdə 45,7% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 51% və 71,8% olmuşdur. Kontrol siniflərdə artım 5,5 % olduğu halda, eksperimental sinifdə 26,1% olmuşdur. 240 saylı məktəbdə mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkən şagirdlərin sayı kontrol siniflərdə 35,8%, eksperimental siniflərdə 26,4% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 38,6% və 50% olmuşdur. Kontrol siniflərdə artım 2,8 % olduğu halda, eksperimental siniflərdə 23,6% olmuşdur. 182 saylı məktəbdə mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkən şagirdlərin sayı kontrol siniflərdə 38,5%, eksperimental siniflərdə 28,1% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 43,6% və 45,3% olmuşdur. Kontrol siniflərdə artım 5,1 % olduğu halda, eksperimental siniflərdə 17,2% olmuşdur. Biləsuvar 1 saylı məktəbdə mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkən şagirdlərin sayı kontrol siniflərdə 31,8%, eksperimental

siniflərdə 41,7% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 36,5% və 58,3% olmuşdur. Kontrol siniflərdə artım 4,7 % olduğu halda, eksperimental siniflərdə 16,7% olmuşdur. Biləsuvar 2 saylı məktəbdə mətndəki sözlərin mənasını açmaqda çətinlik çəkən şagirdlərin sayı kontrol siniflərdə 37,5%, eksperimental siniflərdə 30% olmuşdursa, eksperimentin sonunda bu rəqəmlər müvafiq olaraq 41,2% və 55,7% olmuşdur. Kontrol siniflərdə artım 3,7 % olduğu halda, eksperimental siniflərdə 25,7% olmuşdur.

Eksperimentin nəticələri fərziyyənin doğruluğunu təsdiq edir.

Tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas vermişdir:

1.İbtidai təhsilin məqsədi təhsil alanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir.

2.Bu məqsədin reallaşmasında ibtidai siniflər üçün nəzərdə tutulan təlim fənləri, xüsusilə Azərbaycan dili fənni mühüm əhəmiyyət kəsb edir.

3. İbtidai siniflərdə Ana dili dərslərində bədii materialların mənimsədilməsi prosesində şagirdlər:

- danışanın fikrinə münasibət bildirir, öz fikrini sərbəst və ardıcıl ifadə edir;
- düzgün, səriştəli, şüurlu, ifadəli oxuyur, oxuduğu mətnlərə münasibət bildirir;
- kiçikhəcmli rabitəli mətnlər qurur;
- lüğətlərdən, məlumat kitablarından istifadə edir;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, incəsənəti, adət-ənənələri haqqında öyrəndiyi məlumatları sadə formada təqdim edir;
- yazılı və şifahi nitqində fonetik, leksik, qrammatik qaydalara yiyələndiyini nümayiş etdirir[1].

4. Ədəbi əsərlərin şagirdlərin xarakterinə və ruhuna təsir gücü bədii qiraət və ya bədii oxudan formalaşmağa başlayır. Bədii sözlərdən oxu zamanı təsirlənməyən uşaq və ya gəncin nitqinin estetik təsir gücü yüksək ola bilməz. Bədii ton, tembr, intonasiya, vurğu və orfoepiyanın nitqə verdiyi estetik pafosla yetişmək dili və ədəbiyyatı ürəkdən sevmək deməkdir. Odur ki, ibtidai sinif şagirdlərində ədəbi əsərlərə, bədii-estetik danışığa həssas münasibət tərbiyə etməkdə ana dili dərsliklərinin verdiyi

[1] Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012, s.6

didaktik imkanlardan ifadəli oxu, bədii oxu və bədii təhlil zamanı lazımınca faydalanmaq tələb olunur.

5. I-IV sinif şagirdlərinə yüksək poetik-bədii tələblərə cavab verən şeir və nəsr nümunələrini sevə-sevə öyrətmək və nitqlərində onlardan istifadə etmək mümkündür.Bunun üçün Azərbaycan dərsliklərində mövcud olan imkanlardan daha səmərəli istifadə etmək lazımdır. Tədqiqatda bu məsələlərə tam aydınlıq gətirilir və ibtidai siniflərdə bədii mövzuların tədrisi metodikasını kurikulum tələblərinə uyğun, habelə yeni düşüncə tərzi və innovativ texnologiyalar əsasında qurmaq yeni ideya kimi geniş araşdırılır.

6. Aparılan nəzəri araşdırmalar, sınaq təcrübələri, eksperimentlər və digər tədqiqat metodları vasitəsilə toplanan praktik faktların təhlili göstərir ki, bədii materialların tədrisinin inkişafetdirici və tərbiyəedici imkanlarını daha da genişləndirməyə ehtiyac var.

7. Eksperimental siniflərdə irəli sürülən fərziyyələrin yoxlanılması belə bir fikrə gəlməyə əsas vermişdir ki, eksperimental siniflərin göstəriciləri kontrol siniflərdəkilərlə müqayisədə yüksək olması fərziyyəmizin özünü doğrultduğuna bir sübutdur.

8. Yeni texnologiyaların bədii mövzuların tədrisi prosesində tətbiqi ilə əlaqədar işlənib-hazırlanan tövsiyələr ibtidai sinif şagirdlərinin poetik-emosional və hissi-idraki qabiliyyətlərini yüksəltməyə kömək etmişdir. Çünki bədii mövzularda olan əsərlər həm yeni texnologiyalarla tədris edilmiş və həm də həmin əsərlərin tədrisinin spesifik xüsusiyyətləri nəzərə alınmışdır. Spesifik xüsusiyyətlərin sırasına daxildir: a) mətnin intonasiya xüsusiyyətlərinin habelə intonasiya zənginliklərinin nəzərə alınması;aforistik ifadələr üzərində təhlil işlərinin aparılması; b) poetizm səviyyələrinin bir-bir şərh olunması; c) orfoepik tələffüzlə bağlı təmrinlərin müntəzəm aparılması və monitorinqinin keçirilməsi; ç)qiymətləndirmədə ifadəli tələffüz amilinə əhəmiyyət verilməsi; d)sinifdə vahid nitq rejiminin gözlənilməsi və s.

Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. Bədii materialların müasir metodlarla mənimsədilməsi // Məktəbəqədər və ibtidai təhsil, 2010, № 4, s.54-56

2. Şagirdlərin vətənpərvərlik tərbiyəsində bədii materialların mənimsədilməsinin əhəmiyyəti // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2010, № 3, s. 86-88

3. 1-ci sinifdə Ana dilinin tədrisində bədii materialların

mənimsədilməsi / Doktorantların və gənc tədqiqatçıların XV Respublika Elmi Konfransının materialları, Bakı, 2011, II, s. 276-277

4. Müasir təhsil islahatı baxımından oxu materiallarının mənimsədilməsi / "Müəllim hazırlığının müasir problemləri" mövzusunda Beynəlxalq elmi konfransın materialları, Bakı, 2011, 28-29 oktyabr, s. 346-348

5. Azərbaycan dili dərslərində bədii materialların mənimsədilməsi problemləri // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2012, № 4, s. 68-72 (həmmüəlliflə)

6. Yeni dərsliklər barədə pedaqoji düşüncələr və qənaətlər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərlər, 2013 № 4, s. 27-32 (həmmüəlliflə)

7. Nitq mədəniyyətinin əsasları. Tədris vəsaiti. Bakı: Müəllim, 2013, 167 s. (həmmüəlliflə)

8. Bədii mövzuların mənimsədilməsində başlıca amillər // Əlyazmalar İnstitutu. Filologiya məsələləri, 2013, № 6, s. 381-386 (həmmüəlliflə)

9. Об ожидаемых результатах при художественных материалов на уроках родного языка // Вектор науки Тольяттинского государственного университета, 2013, № 2 (13), с. 35-37

10. Дидактических возможностях содержательной части уроков чтения // Вектор науки Тольяттинского государственного университета, 2013, № 3 (14), с. 23-24 (həmmüəlliflə)

11. Müəllim hazırlıgında nümunənın rolu // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, № 1, s. 84-86

**Д.Т.Аскерова**

## Пути и средства присвоения художественных материалов на уроках родного языка

### Резюме

Диссертация состоит из введения, 2-х глав, выводов и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, объект исследования, предмет, цель, задачи, методологическая основа, методы, научная новизна, теоретическое и практическое значение, излагаются основные положения, выдвигаемые на защиту.

I глава диссертации называется «Общие вопросы проблемы». Здесь рассматривается постановка проблемы присвоения художественных произведений в курикулуме Азербайджанского языка начальных классов, оценивается преподавание художественных тем с точки зрения историчности и современности, исследуется постановка проблемы в научно-педагогической и методической литературе, рассматриваются дидактические возможности интерактивных методов преподавания, используемых в анализе художественных произведений.

II глава диссертации называется «Пути и средства присвоения художественных тем на уроках Азербайджанского языка начальных классов». Здесь рассматриваются особенности содержания проводимых работ по художественным произведениям, выясняются возможности преподавания прозаичных и лирических произведений, определяются средства и пути.

В конце диссертации даются результаты эксперимента, выводы и предложения, список использованной литературы.

**D.T.Asgarova**

## WAYS AND SRDSTVA APPROPRIATION ART MATERIALS AT THE LESSONS OF THE NATIVE LANGUAGE

### Summary

The thesis consists of an introduction, 2 chapters, conclusion and bibliography .

In the introduction the actuality of the topic , research object , subject, goal, objectives , methodological framework , methods , scientific novelty, the theoretical and practical value , sets out the main provisions put forward by the defense.

Chapter I of the dissertation is called “Common Questions problem”. Here we consider the statement of the problem of appropriation of works of art in the curriculum of the Azerbaijani language primary school, teaching art is evaluated in terms of the historicity and modernity, studied formulation of the problem in the scientific, educational and methodical literature, considered the possibility of didactic interactive teaching methods used in the analysis of works of art.

Chapter II of the dissertation is called “Ways and means of artistic appropriation of the Azerbaijani language in the classroom primary school”. It discusses the features of the contents of the operations of artistic works, to investigate the possibility of teaching prosaic and lyrical works, determined ways and means.

At the end of the thesis are experimental results, conclusions and suggestions, list of references.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Аскерова Дурдана Талыб гызы**

# ПУТИ И СРЕДСТВА ПРИСВОЕНИЯ ХУДОЖЕСТВЕННЫХ МАТЕРИАЛОВ НА УРОКАХ РОДНОГО ЯЗЫКА

**5801.01 – теория и методика обучения и воспитания
(методика преподавания Азербайджанского языка)**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора
философии по педагогике**

**Б А К У - 2015**